"...Deyə bilərəm ki, biz müşahidəçi qismində dəvət etdiyimiz bütün təşkilatları bu seçkilərdə görmüşük. Ancaq Avropa Parlamentinə biz dəvət göndərməmişik, çünki birincisi, biz bu qurumun üzvü deyilik, ikincisi, buna lüzum görmürük, təxminən eyni səbəblərə görə. Çünki Azərbaycana qarşı ədalətsiz qətnamələrin qəbul olunması sahəsində Avropa Parlamenti birincilik əldə edib. Onların da qətnamələri bizim üçün tamamilə əhəmiyyətsizdir. Ancaq bildirməliyəm ki, belə meyillər bizə qarşı bu gün də müşahidə olunur" - bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci il mart ayının 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında iştirak edərkən bildirmişdir.

Bəli, bu gün ikili standartlar, ölkəmizə qarşı əsassız iddialar davam edir. Bu dəfə də Avropa Parlamenti öz missiyasına sadiq qalaraq erməni lobbisinin könlünü xoş etdi. Söhbət Avropa Parlamentinin Qarabağda erməni mədəni irsinin dağıdılması ilə bağlı qəbul etdiyi qətnamədən gedir.

# Azərbaycan ərazilərində ermənilərin törətdikləri vandallığa bütün dünya şahiddir

Bu günlərdə Avropa Parlamenti erməni riyalarına uyaraq "Dağlıq Qarabağda mədəni irsin məhv edilməsi haqqında" qərəzli qətnamə qəbul edib. Qətnamədə Azərbaycanın Qarabağda erməni mədəni irsini inkar və məhv etdiyi və bu hərəkətlərlə beynəlxalq hüquq normalarını pozduğu bildirilir. Yüksək səs çoxluğu ilə qəbul edilmiş qətnamədə Azərbaycanın bölgədə erməni irsinin qəsdən məhv edilməsi siyasəti aparması, tarixi saxtalaşdırması, beynəlxalq hüquq normalarını pozduğu, erməni kilsələri üzərindəki yazıları sildiyi vurğulanır. Qeyd olunur ki, ermənifobiya, ermənilərə qarşı kin, nifrət bəsləyən azərbaycanlılar "erməni mədəni irsinin" silinməsi siyasəti həyata keçiriblər. Hətta, Ermənistanın Azərbaycana "qaytardığı" keçmiş münaqişə bölgələrinin, xüsusilə Ağdam və Füzulinin tamamilə dağıdılması və talan edilməsi göstərilir. 635 nəfərin lehinə, 2 nəfərin əleyhinə səs verdiyi, 42 nəfərin isə bitərəf qaldığı qətnamədə Avropa Parlamenti Qarabağda "xristian mədəniyyəti abidələrinin zədələnməsi və dağıdılmasından" ciddi narahatlığını bildirir. Lakin nədənsə, Azərbaycan torpaqları 30 il işğal altında qaldığı müddətdə bu qurum heç bir narahatlıq keçirməmişdi.

Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin törətdikləri vandallığa, tarixi abidələrimizin, maddi, mədəni, təbii resurslarımızın dağıdılmasına bütün dünya şahiddir. Mənfur düşmənin əbədi, əzəli yurd yerlərimizi işğalı nəticəsində mədəni irs nümunələrimizin ermənilər tərəfindən məhv edilməsi heç bir ölçüyə sığmır. İşğal dövründə xalqımıza məxsus tarix-mədəniyyət abidələrinin böyük əksəriyyəti dağıntıya, vandalizmə və ermənilər tərəfindən özününküləşdirilməyə məruz qalıb. Ermənistan Respublikası tərəfindən islam dininə məxsus tarixi abidələr dağıdılıb, Qafqaz Albaniyası dövrünə aid mədəni irs nümunələrinin bədii-estetik görünüşü ciddi şəkildə dəyişdirilməklə erməniləşdirilib.

İşğal dövründə Ermənistan tərəfi tarix-mədəniyyət abidələrini erməniləşdirmək üçün yaxşı "fürsət" əldə etmişdilər. Bu illər ərzində abidələrimizin əksəriyyəti məhv edilmiş və öz zəngin koloriti və memarlıq quruluşu ilə seçilən, Qafqaz Albaniyası dövrünə aid memarlıq abidələri olan məbədlər, sovmələr, bazilika və monastırların üzərlərindəki rəsmlərin, süjet xarakterli oymaların, simvolların dəyişdirilməsi ilə mənimsənilmişdir. Belə abidələrə misal olaraq Kəlbəcər rayonu ərazisində yerləşən Gəncəsər və Xudavəng və s. monastırların üzərində zəng qülləsi inşa edilmişdir.

Təcavüzkar Ermənistan rəhbərliyinin təşkilatçılığı ilə Xocavənd rayonunda yerləşən Azıx mağarası, Ağdam rayonunda yerləşən Şahbulaq qəsrinin yaxınlığında xarici ölkələrdən olan mütəxəssislərin də daxil edildiyi arxeoloji ekspedisiyalar tərəfindən qanunsuz qazıntı işləri aparılmışdır. Eyni zamanda, Ermənistan tərəfi daha bir təxribata əl ataraq Şuşa şəhərindəki Yuxarı Gövhərağa məscidində "bərpa" işləri adı altında abidənin tarixini saxtalaşdırmaqla məşğul olmuş, xalqımıza məxsus bu tarixi tikilinin fars məscidi olmasını iddia etmişdirlər. Azərbaycanın 67-si məscid olmaqla 400-dən artıq tarixi-dini abidəsinin məhv edilməsi, minlərlə yer adının, daşınmaz tarix və mədəniyyət abidələrinin adlarının və yüzlərlə toponimin dəyişdirilərək erməni adları ilə əvəz edilməsi ilk növbədə 1954-cü ildə müharibə dövründə mədəni mülkiyyətin qorunmasına həsr olunmuş, Haaqada qəbul edilmiş ilk beynəlxalq müqavilə olan "Silahlı münaqişələr zamanı mədəni abidələrin qorunmasına dair Konvensiya"ya ziddir.

Dini inanc yerlərimizin - məscidlərimizin mal-qara tövləsinə çevrilməsi isə bütövlükdə bəşər mədəniyyətinə qarşı təhqirdir. Riyakarlıq, ikiüzlülük nümayiş etdirən, erməni lobbisinin maliyyəsi ilə fəaliyyət göstərən və bu lobbinin əlində alətə çevrilən Avropa Parlamentini yüzlərlə yaşayış məntəqəsini viran qoymuş, minlərlə insanın həyatına son qoymuş Ermənistan ordusunun 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlaması hərəkətə gətirə bilmədi, Azərbaycanın milli-dini irsi haqqında nəinki qərar, qətnamə qəbul etmədi, heç fikirləşmədi də. Özünü demokratiyanın və dünyəvi dəyərlərin məkanı sayan, lakin ədalətdən, humanizmdən xəbəri olmayan Avropa Parlamenti bu qətnaməni qəbul etməklə özündə bir daha islamofob millətçilik, türkofobiya, azərbaycanofobiya, islamofobiya və nifrətin ən ifrat təzahürlərini büruzə verdi.

Bu gün isə Avropa Xalq Partiyasının üzvü, Dağlıq Qarabağın mədəni irsinin məhv edilməsi ilə bağlı qətnamə layihəsinin həmmüəllifi Peter van Dalenin - "Biz görürük ki, Prezident Əliyevin sərəncamı ilə Dağlıq Qarabağın mədəni irsi, o cümlədən kilsələr, abidələr, meydanlar və s. məhv edilir. Biz Avropa Parlamentində Bakının ermənilərə qarşı nifrət siyasətini pisləyirik və UNESCO-nu Dağlıq Qarabağda faktaraşdırıcı missiya həyata keçirməyə çağırırıq"- deyə siyasi saxtakarlığı insanda ikrah hissi oyadır. Obyektivliyinə, düzgün siyasət yürütməsinə güvənmədiyimiz bir qurumun qəbul etdiyi qərar da dövlətimiz üçün heç bir əhəmiyyət kəsb etmir. Belə ki, müharibənin bitdiyi ilk günlərdən dəfələrlə ermənilərin 30 illik işğalı dövründə xalqımızın mədəni irsinə, tarixinə qarşı insanlıq adına yaraşmayan alçaq hərəkətlərinin, özbaşınalığının araşdırılması üçün Avropanın müvafiq təsisatlarına, o cümlədən də UNESCO-ya müraciət edərək müvafiq missiyaların göndərilməsini tələb edən dövlət başçımız Vətən müharibəsindən sonra işğaldan azad edilmiş Ağdam şəhərində olarkən demişdir: "Biz UNESCO ilə çox sıx əməkdaşlıq edirik. Amma gəlib xristian məbədlərinə baş çəkmək istəsə, buraya gəlsin. Gəlsin və desin vəhşi erməni neyləyib burada. Bir də ki, bir neçə il bundan əvvəl Minsk qrupunun həmsədr ölkələrinin səfirləri bu məsciddə, burada olublar. Onlar iki dəfə faktaraşdırıcı missiyalar keçiriblər və mənə deyiblər ki, Ağdam məscidində olublar. Niyə məsələ qaldırmayıblar? Niyə bu, bəzi Qərb liderlərində narahatlıq yaratmayıb? Deməli, müsəlman məscidlərini təhqir etmək olar, inək, donuz saxlamaq olar, dağıtmaq olar. Belədirsə, belə də desinlər və getsinlər öz ölkələrində problemlərlə məşğul olsunlar, bizim işimizə burunlarını soxmasınlar. Heç kim bizim işimizə qarışmasın. Biz özümüz gəlmişik buraya. Bütün o ölkələrin səylərinə rəğmən gəlmişik, bütün təxribatlara rəğmən gəlmişik, qan tökə-tökə gəlmişik və durmuşuq bizim torpağımızda. Hərə getsin öz işi ilə məşğul olsun. Bizim işimizə qarışmaq istəyənin cavabını vermişik və verəcəyik".



Göründüyü kimi, Azərbaycan Avropa Parlamenti hələ ikiüzlü siyasətlə, ikili münasibətlə baş qarışdıranda Azərbaycan UNESCO-nu düşməndən azad olunmuş ərazilərə çağıraraq erməni vandallığını öz gözləri ilə görməyə dəvət etmişdi. Amma təəssüflər olsun ki, Azərbaycanın müraciətlərinə məhəl qoyulmamış və bəzi qurumlar öz ənənəsinə sadiq qalaraq ölkəmizə qarşı ikili standartlar nümayiş etdirmişdi. Ədalətdən, humanizmdən danışan, lakin özü saxtakarlıqla məşğul olan Avropa Parlamenti isə Ermənistanı regionda yaranan yeni reallıqlara, eyni zamanda sülhə, tolerantlığa, mədəniyyətlərarası və dialoqlararası anlaşmaya təşviq etməkdənsə, əksinə onların vandalizm əməllərini ört-basdır edir, bəşəri cinayətlərini başqalarının üzərinə atmaqla saxta, çirkin niyyətlərini bir daha nümayiş etdirir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2022.- 18 mart.- S.5.